Səh. 2 Anhedoniya – Azər Musaoğlu
Səh. 5 Dükan yolunda gördüklərim – Afiq Muxtaroğlu
Səh. 5 Kiçik addımlardan zirvəyə – Esmira Ələkbərli
Səh. 6 Abituriyentlərə tövsiyə – Çiyalə Osmanova
Səh. 3 Bitib tükənmək bilməyən arzularımız – Hacı Bəkiroğlu
Səh. 4 MÜƏLLİMLƏRİN YENİ ƏMƏKHAQQI QAYDASI 2024-CÜ İLİN İYUL AYINDAN QÜVVƏYƏ MİNƏCƏK
Səh. 7 “Koroğlu”nun əxlaqi-estetik əqidəsi – Elizbar Cavelidze

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

30 NOYABR
2023-CÜ İL
№ 022 (193)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## AZƏRBAYCAN-GÜRCÜSTAN-TÜRKİYƏ MÜDAFİƏ NAZİRLƏRİNİN ÜÇTƏRƏFLİ GÖRÜŞÜ KEÇİRİLİB



Noyabrın 27-də Bakı şəhərində Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov, Türkiyə Respublikasının milli müdafiə naziri Yaşar Güler və Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladze arasında üçtərəfli görüş keçirilib.

Azərbaycan Müdafiə Nazirliyinin yaydığı məlumata əsasən, görüşdə hər üç xalqın əsrlər boyu mehriban qonşuluq və dostluq şəraitində yaşadığı, bu gün də dövlət və hökumət başçılarının rəhbərliyi ilə bu əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyi qeyd edilib. Bildirilib ki, qarşılıqlı etimada əsaslanan əməkdaşlıq hər üç xalqın rifahının təmin olunması baxımından böyük önəm kəsb edir.

Üçtərəfli görüşdə regionun təhlükəsizliyinə təhdid törədə biləcək amillərlə mübarizədə səylərin birləşdirilməsinin vacibliyi qeyd olunub. Müdafiə nazirləri üçtərəfli təlim və treninqlərin əhatə dairəsinin genişləndirilməsinin əhəmiyyətini xüsusi vurğulayıblar.

Müdafiə sahəsində üçtərəfli əməkdaşlığın genişlənməsinin sadəcə hər üç ölkə üçün deyil, eləcə də bölgədə sülhün, sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə də öz töhfəsini verəcəyinə əminlik ifadə olunub.

Görüşdə hərbi, hərbi təhsil, hərbi tibb sahələrində əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran digər aspektlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Sonda media nümayəndələri üçün mətbuat konfransı keçirilib və üçtərəfli görüşün yekununa dair protokol imzalanıb.

Qeyd edək ki, Azərbaycan-Türkiyə-Gürcüstan müdafiə nazirlərinin üçtərəfli formatda növbəti görüşü gələn il Gürcüstanda keçiriləcək. Müdafiə nazirlərinin daha əvvəlki – IX üçtərəfli görüşü 2022-ci ilin 21 dekabrında Türkiyənin Kayseri şəhərində keçirilmişdi. Noyabrın 27-də keçirilən Bakı görüşü müdafiə nazirlərinin bu formatda 10-cu görüşü idi.

## İRAKLİ QARİBAŞVİLİ İLHAM ƏLİYEVLƏ GÖRÜŞÜB



Gürcüstanın Baş naziri İrakli Qaribaşvili noyabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüşüb.

Baş nazir İrakli Qaribaşvili SPECA-nın Zirvə görüşündə fəxri qonaq qismində iştirak üçün dəvətə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib, SPECA-nın 25 illiyi münasibətilə təbriklərini çatdırıb.

İ.Qaribaşvili Azərbaycanın SPECA-ya sədrliyi dövründə bu Zirvə görüşünün keçirilməsini yüksək qiymətləndirib.

Söhbət əsnasında Azərbaycan ilə Gürcüstan arasında mehriban dostluq və strateji tərəfdaşlıq münasibətlərinin inkişafından məmnunluq ifadə olunub. Transxəzər nəqliyyat dəhlizinin inkişafı və bu xüsusda Gürcüstan, Azərbaycan və Mərkəzi Asiya ölkələri arasında nəqliyyat-logistika sahəsində əməkdaşlıq, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin ötürücülük qabiliyyətinin artırılması məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə Azərbaycan ilə Gürcüstan arasında ticarət dövriyyəsinin artmasından məmnunluq ifadə olunub. Əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## MÜDAFİƏ NAZİRİ: GÜRCÜSTAN AZƏRBAYCAN VƏ ERMƏNİSTAN ARASINDA DİALOQA VƏ ETİMADIN MÖHKƏMLƏNDİRİLMƏSİNƏ KÖMƏK ETMƏYƏ HAZIRDIR



Gürcüstan Müdafiə Nazirliyi Cuanşer Burçuladzenin Bakıda azərbaycanlı həmkarı general-polkovnik Zakir Həsənovla ikitərəfli görüşünə dair məlumat yayıb.

Nazirliyin məlumatında bildirilib ki, tərəflər regionun qarşısında duran vəzifələri müzakirə ediblər. Cuanşer Burçuladze Gürcüstanın dinc qonşuluq təşəbbüsü çərçivəsində Azərbaycan və Ermənistan arasında dialoqa və etimadın möhkəmləndirilməsinə kömək etməyə hazır olduğunu vurğulayıb.

Görüşdə Azərbaycan hərbçilərinin Gürcüstanda keçirilməsi planlaşdırılan beynəlxalq təlim və kurslarda fəal iştirak etməsi haqqında danışılıb.

Görüş zamanı ikitərəfli və üçtərəfli formatlarda əməkdaşlığın, həmçinin ölkələrin və regionun inkişafına töhfə verəcək strateji səviyyəli görüşlərin mövcud dinamikasının saxlanılmasının vacibliyi qeyd olunub.



# ANHEDONİYA

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Hər səhər yuxudan oyanan kimi məni Gürcüstanda xəlq etdiyinə görə Allaha şükür edib yerimdən elə dururam. Məsələn, Allahın iradəsiylə Sudanda, Suriyada, İranda, Əfqanıstanda, yaxud Şimali Koreyada da dünyaya gələ bilərdim – bunu bir anlıq təsəvvür etdikdə tüklərimin ürpəşməsi bir saata yaxın davam edir...

Bir məsəl var, deyir: güldürənin yanında deyil, ağladanın yanında otur. Amma, təəsüf ki, biz bu məsəli hərfi mənada başa düşmüşük – ağladanı əli qələmli, dili kəlamlı, səhvlərini göstərərək doğrunu söyləyən bir ayna, bir tənqidçi kimi yox; əli dəyənəkli, qolçomaqlı, səni hər an təpiyinin altına salıb döyə, söyə bilən "nüfuzlu" biri kimi təsəvvür etmişik. Bəlkə də elə buna görə çox vaxt qorxduğumuzdan ağladanın (gücün) yanında olmuşuq...

Məncə, yumor hissi olmayan insan ciddi psixoloji problemləri olan insandır. Yumor hissi olmayan adamdan təhlükəli, qorxulu adam yoxdur yer üzündə. Məsələn, yumor hissi olan insanı cəzalandırmaq, əzab və işgəncə vermək üçün onu yumor hissi olmayan insanla bir otağa salıb qapısını bağlamaq və ya bir kamerada saxlamaq kifayətdir. Və ya yumor hissi olmayan adama vəzifə vermək yetərlidir ki, sərt, diktatura rejimi yaradıb represiyalar törətsin, əl kəsdirsin, daşqalaq etdirsin, adam asdırsın və sair. Mən həmişə yumor hissi olmayan insanlardan uzaqlaşmışam, qaçmışam.

Yuxarıda qeyd etdiyim el məsəlini hərfi qəbul etdiyimiz üçün çəkdiyimiz filmlər də, seriallar da ağlamalıdır, hazırladığımız televiziya verilişlərimiz də ağlamalıdır, mərasimlərimizdən tutmuş, tarixi günlərimizə kimi əksəriyyəti ağlamalıdır, hətta toylarımızda da, bayramlarımızda da mütləq kədərli, ağlamalı şeirdən, hekayədən, xatirədən danışıb camaatın qanını qaraldacaq biri mütləq tapılacaq. Küçədə kimisə saxlayıb kefini-halını soruşmağa peşmansan, o saat başlayır ağlamağa ki, iş yox, pul yox, problem çox. Evini Allah tiksin, qorxma, səndən nə iş, nə pul istəyəcəm, gülərüzlə cavabımı ver, mənim də kefim yerində olsun, sənin də. Elə bil xəmirimiz göz yaşıyla yoğrulub, mayamız kədərlə tutulub. Axı ağlamağın da öz yeri, öz həddi var. Ağlamayana məmə yoxdur deyib elə məmə yeyənindən, pəpə deyəninə ağlaşma qurmuşuq...

Və kənardan baxanda bizim bu qaramat və ağlamalı durumumuz bir az gülməli də görsənir. Sənin də dodağın bu gülməli duruma qaçıb gülümsəyəndə ələmlərinə nəşə yoluxmasın deyə bütün bu ağlayan ordusu, bu qaraguruh öz ələmdarlarının fətvası ilə sənin təbəssümünə, gülüşünə asılmaq, kəsilmək, şallaqlanmaq hökmü oxuyur, gülməyi qadağan edirlər. Bir sözlə, səni gülən görüb səni də özləri kimi ağlatmağa çalışırlar. İstəyirlər sən də onlara oxşayasan, onlar kimi qaşqabaqlı gəzəsən, onlar kimi qapqara geyinəsən, zarafat etməyəsən, çalıb-oynamayasan, deyib-gülməyəsən, sual verib-tənqid etməyəsən, həyatdan zövq almayasan, sevinc hissin olmaya, elə onlar kimi irticanın xidmətində və keşiyində durasan...

Sevinc hissini itirib həyatdan zövq almayanlar üçün söz də var – anhedoniya. Bunun bir xəstəlik və ya psixoloji hal olmasını deyə bilmərəm, bunu mütəxəssislərin öhdəsinə buraxaq.

Mən yalnız dövlətlərin xəritəsini cızanlara qotur bir təklif edə bilərəm ki, dünyanın ən lazımsız ərazisində Anhedoniya adında bir ölkə yaratsınlar (əsl ölkə adı kimi səslənir) və dünyanın bütün irticaçı, qaragüruh, radikal, qaramat, ilin ayın bütün günlərini ağlar qalmış, qara rəngdən başqa rəng tanımayan, sevinməyi, gülməyi, həyatdan zövq almağı özünə qadağan etmiş, kitabı, yazını, tərəqqini qəbul etməyən, yumor hissi olmayan, yer üzündəki əməli, fəaliyyəti yalnız asıb-kəsməkdən, qan tökməkdən ibarət olan insanları da onların istədikləri qayda və qanunlarla həmin ölkədə yaşamaları üçün dəvət etsinlər, vizasız-zadsız, könüllü olaraq. Və qoy kim taleyinə düşən ölkəni, vətəni bəyənmirsə rədd olsun getsin Anhedoniyada yaşasın, özünün də canı rahat olsun, narahat etdiklərinin də...

Bilirəm, mütləq indi biri durub qabağından qara tökəçək ki, boş şeydir, alınmayacaq, heç gördünüzmü Əfqanıstanın və ya Şimali Koreyanın qayda-qanununu bəyənən kimsə çıxa gedə Əfqanıstanda və ya Şimali Koreyada yaşaya?..

Bəlkə də düz deyəcək...

# SALOME ZURABİŞVİLİ HÖKUMƏTDƏN İCAZƏSİZ XARİCƏ SƏFƏRLƏRİNİ DAVAM ETDİRƏCƏYİNİ DEYİB



Gürcüstan Prezidenti Salome Zurabişvili hökumətdən icazəsiz xaricə səfərlərini davam etdirəcəyini bəyan edib. Prezident bu barədə Fransanın "Le Monde" nəşrinə müsahibəsində bildirib.

O, hökumətin ona qarşı təhdidlərinin davamlı olduğunu vurğulayıb. Əlavə edib ki, hakim "Gürcü Arzusu" partiyasının ona qarşı başlatdığı impiçment işi artıq bağlanıb, lakin hökumət indi başqa bir ittihamla çıxış edə bilər.

Salome Zurabişvili "Gürcü Arzusu"nun ona qarşı impiçment prosesini sabiq Baş nazir, milyarder Bidzina İvanişvilinin icazəsi olmadan başlatmasının mümkün olmadığını bildirib. Əlavə edib ki, "Gürcü arzusu"nun bu məsələdə uğur qazanmasının ölkənin Avropa yolu baxımından son dərəcə mənfi nəticələri ola bilərdi.

Salome Zurabişvili 2018-ci ildə Prezident seçilməsində Bidzina İvanişvilinin dəstəyinin böyük rol oynadığını, lakin indi İvanişvilinin "əlində" olmadığı üçün ittihamlara məruz qaldığını deyib.

"Aydındır ki, hakim partiyanın dəstəyi olmadan müstəqil namizəd kimi mənim seçilmək üçün rıçaqlarım yox idi. O, ehtimal ki, məni "Gürcü Arzusu"nun liderləri kimi onun əllərində olmadığım üçün ittiham edir".

Zurabişvili Bidzina İvanişvili ilə 2-3 ildir ki, heç bir əlaqə saxlamadığını, söhbətlərinin isə yalnız xarici siyasətlə bağlı olduğunu deyib.

"Mən Avropa səfərimdən qayıtdığım zaman nə etməli olduqlarımızla bağlı fikirlərimi onunla bölüşmək üçün gəldim. Bu (ünsiyyət) dialoqdan daha çox monoloq idi. Heç kim onun nə düşündüyünü bilmir", – Zurabişvili deyib.

# DOĞUŞ VƏ QEYSƏRİYYƏ ƏMƏLİYYATI TAM MALİYYƏLƏŞDİRİLƏCƏK



Gürcüstan Səhiyyə Nazirliyinin yaydığı məlumata əsasən, sağlamlıq proqramı çərçivəsində bütün vətəndaşlar üçün doğuş və qeysəriyyə əməliyyatları tam maliyyələşdiriləcək.

Məlumatda bildirilib ki, maliyyələşdirməyə həkim və müalicə xərcləri, dərman preparatları, yemək, palata və digər xərclər daxildir.

"Universal sağlamlıq proqramına daxil olan bütün tibb müəssisələrində DRG modeli doğuş və qeysəriyyə əməliyyatı xidmətinin qiyməti 1222 lari təşkil edir. Könüllü qeysəriyyə əməliyyatına və ya VIP palata xidmətlərinə gəlincə, bu xidmətlər dövlət tərəfindən maliyyələşdirilmir", – məlumatda qeyd olunub.

Səhiyyə nazirinin müavini İlia Quduşaurinin sözlərinə görə, islahatın məqsədi yüksək keyfiyyətli tibbi xidmətlərin maksimum əlçatanlığını təmin etmək, xəstələrin əlavə ödənişlərini azaltmaq, səhiyyə sisteminin səmərəliliyini artırmaq və büdcə vəsaitlərini səmərəli xərcləməkdir.

# MÜDAFİƏ MƏCƏLLƏSİNƏ YENİDƏN DƏYİŞİKLİK EDİLİB

Ölkənin Müdafiə Məcəlləsinə yenidən dəyişiklik edilib. Məcburi hərbi xidmətin təxirə salınması qaydalarına aid qanun layihəsi parlamentdə qeydiyyatdan keçib. Dəyişikliklər tələbələrə və dini qurumların nümayəndələrinə aiddir.

Dəyişikliyə əsasən, tələbələr məcburi hərbi xidmətdən yayına bilməyəcəklər. Bu, xarici universitetə qəbul olmuş, lakin təhsilini Gürcüstandan distant formada davam etdirən tələbələrə də aiddir.

Qeyd edək ki, Müdafiə Məcəlləsində indiyədək distant təhsillə bağlı heç bir qeyd yox idi. Qanun bu tələbələrə hərbi xidmət üçün optimal forma təklif edəcək:

• Ehtiyatda olan kiçik zabit könüllü hərbi hazırlıq proqramı;
• Tələbələr üçün könüllü hərbi hazırlıq proqramı (4 il ərzində həftəlik və ya hər ay bir neçə gün olmaqla);
• 6, 8 və 11 aylıq hərbi xidmət növlərindən birini seçmək imkanı.

Tələbələrlə bağlı dəyişikliyə "aktiv" sözü əlavə edilib, yəni məzun olana qədər hər bir təhsil pilləsində statusu aktiv olan tələbələr hərbi öhdəliyi təxirə salınma hüququndan istifadə edə biləcəklər.

Dəyişikliyə görə, "keşiş" statusunun olması artıq hərbi xidmətin təxirə salınması üçün əsas olmayacaq. Dini qurumların din xadimləri hərbi xidmətin alternativ, qeyri-hərbi formasını keçməlidirlər.

## AZƏRBAYCAN VƏ GÜRCÜSTAN ARASINDA HƏRBİ ƏMƏKDAŞLIQ PLANI İMZALANIB



Noyabrın 27-də Bakı şəhərində Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ilə Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladze arasında ikitərəfli görüş keçirilib.

Hər iki ölkənin nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə qonaqları salamlayan general-polkovnik Zakir Həsənov onları ölkəsində görməkdən məmnun olduğunu bildirib. Müdafiə naziri Azərbaycan ilə Gürcüstan arasında əlaqələrin inkişafında dövlət başçılarının görüşlərinin mühüm rol oynadığını xüsusi vurğulayıb. Bir çox sahələrdə olduğu kimi, hərbi sahədə də əlaqələrin daha da güclənərək inkişaf etdiyini qeyd edib.

Azərbaycana səfərindən məmnunluğunu ifadə edən Cuanşer Burçuladze Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası ilə əlaqədar həmkarına təbriklərini çatdırıb. Qarşılıqlı səfərlərin, bu cür görüşlərin ölkələr arasında əməkdaşlığın yüksək səviyyəsinin bariz nümunəsi olduğunu bildirib.

Görüşdə hər iki ölkə arasında hərbi əməkdaşlığın inkişaf perspektivlərindən danışılıb, həmçinin birgə təlimlərin intensivliyinin artırılması barədə ətraflı fikir mübadiləsi aparılıb. Ölkələrin beynəlxalq səviyyədə qəbul olunmuş ərazi bütövlüyünün dəstəkləndiyi diqqətə çatdırılıb.

Sonra tərəflər regionda sülhün və təhlükəsizliyin təmin olunması, hərbi, hərbi texniki, hərbi təhsil sahələrində əməkdaşlığın inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran digər məsələləri ətraflı müzakirə ediblər.

Görüşün sonunda Azərbaycan və Gürcüstan Müdafiə nazirlikləri arasında 2024-cü il üçün ikitərəfli hərbi əməkdaşlıq planı imzalanıb.

## TÜRKİYƏNİN MÜDAFİƏ NAZİRİ: "AZƏRBAYCAN VƏ GÜRCÜSTAN TÜRKİYƏNİN HƏRBİ ƏLAQƏLƏRİNİN ƏN SIX OLDUĞU ÖLKƏLƏRDİR"



"Azərbaycan və Gürcüstan Türkiyənin hərbi əlaqələrinin ən sıx olduğu ölkələrdir". Bunu Türkiyənin milli müdafiə naziri Yaşar Güler noyabrın 27-də Bakıda Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov və Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladze ilə üçtərəfli görüşdə deyib.

O, təcrübəsini Türkiyə ilə bölüşdüyünə görə Azərbaycan və Gürcüstana təşəkkür edib.

"Üç ölkənin birgə hərbi məktəbi də əlaqələrimizi gücləndirəcək. Təlimlərin gələcəkdə də davam etməsini arzulayırıq", – dərə Y.Güler bildirib.

## AZƏRBAYCAN VƏ GÜRCÜSTAN TƏHSİL ƏLAQƏLƏRİ MÜZAKİRƏ OLUNUB



Azərbaycan Elm və Təhsil Nazirliyinin nümayəndə heyəti Gürcüstanda səfərdə olub.

Azərbaycanın elm və təhsil nazirinin müavini Həsən Həsənlinin rəhbərlik etdiyi nümayəndə heyəti Tbilisidə Gürcüstanın təhsil və elm naziri Giorgi Amilaxvari ilə görüşüb.

Görüşdə Azərbaycan ilə Gürcüstan arasında təhsil sahəsində əməkdaşlığın perspektivləri, iki ölkənin müvafiq universitetləri arasında müəllim və tələbə mübadiləsi, birgə elmi araşdırmaların aparılması kimi məsələlər barədə fikir mübadiləsi aparılıb.

Tərəflər Azərbaycan və Gürcüstan arasında elm və təhsil sahəsində əməkdaşlığın daha da genişləndirilməsi və inkişafı baxımından qarşılıqlı səfərlərin sayının artırılmasının vacibliyini qeyd ediblər.

Görüşdə Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev və digər rəsmilər də iştirak ediblər.

## BİTİB TÜKƏNMƏK BİLMƏYƏN ARZULARIMIZ



**Hacı Bəkiroğlu**
hacihaciyev@hotmail.com

İnsanoğlu yaradıldığı gündən etibarən arzu və istəkləri ilə var olmuşdur. İnsanın dünya nemətlərinə meyilli olması yaşamaq arzusunun bir gərəyidir. Buradan da görünür ki, insan ölümü arzu etməz. Hər insan uzun ömür sürməyi, sağlam və xoşbəxt yaşamağı arzulayır. Uzun illərdir ki, alimlər ölümsüzlük üzərində çalışırlar, müxtəlif dərmanlar icad edirlər, ancaq bunların heç biri ölümdən qaçmağa güc gələ bilmir. Çünki ölüm Allahın insana vermiş olduğu ömrün bu dünyada sonlandığı, daha sonrakı həyat olan axirət həyatının başlanğıcıdır.

Bizlər bu dünyaya doymayaraq bu işimi də həll edim, bu arzuma da çatım, bu, bu, bu... deyərək arzularımızın doyumsuzluğuna gəlib çıxırıq. Bu səbəblə də həzrət Peyğəmbər "İnsanoğlunun bir vadi dolusu qızılı olsa bir ikincisini istəyər; onun (bu ehtirasını) ancaq torpaq (ölüm) doyurar" buyurmaqdadır.

Bəli, arzu və istək təbii bir hissdir və onsuz yaşamaq mümkün deyil, ancaq insan arzu və istəklərini nəfsinin istəkləri doğrultusunda gerçəkləşdirməməlidir. Öz arzusuna və istəyinə nail olmaq üçün hər yola əl atan insanlarda getdikcə mərhəmət, sevgi, hörmət duyğuları aradan qalxmağa başlayar və insan arzusuna çatmaq üçün qarşısında əngəl tanımaz, ona mane olan hər şeyi və hər kəsi ortadan qaldırar. Bu, insan qətlinə gətirib çıxarsa belə. Ancaq müsəlman olan şəxs arzu etdiyi şeylərə sahib olması üçün Allaha dua edər və hətta arzuladığı şeyin əgər onun üçün xeyirli olacaqsa nəsib olmasını diləyər.

Bu yaxınlarda bir televiziya kanalında bu mövzuya toxunan çox hörmət etdiyim, dəyərli bir ilahiyyatçımız olan Eldar Kərimov movzunu qısaca özətləyərək buyurdu ki, "Allah insanın duasına (arzusuna) üç şəkildə cavab verər: birincisi, sənin istədiyin şey sənin üçün xeyirlidirsə onu qəbul edər və anında sənə qismət edər, ikincisi, gecikdirər istədiyindən yaxşısını verər, üçüncüsü, sənin istədiyini verməz, bunun qarşılığında sənin üçün ən xeyirlisini verər". Mövzudan da anlaşıldığı kimi, Allah qullarının heç zaman pisliyini istəməz.

Bir də, insandakı istəmə duyğusu iki yöndə özünü biruzə verir, bunlardan biri, yuxarıda da vurğuladığımız kimi, istəkdir, digəri isə ehtiyacdır. İstək nədir? İstək həyatımızda o qədər də ehtiyac duymadığımız, yəni onun olmadığı təqdirdə də həyatımıza davam edə biləcəyimiz, ancaq sahib olduğumuzda xoşbəxt olduğumuzu sandığımız şeylərdir. Ehtiyac olan şeylər isə bəslənmə, yəni yeyəcək, ikincisi sığınma, yəni ev və sonuncusu isə geyimdir. Bunlardan əlavə olanlar artıq arzu və istəklərimiz arasında yer almaqdadır. Əlbəttə, insan bu ehtiyacların gözəl və rahat olması üçün çalışmalıdır. Ancaq bunlardan əlavə olaraq istək deyə adlandırdığımız şeylər üçün digər insanlara qarşı haqsızlıq etmək, onların həyatını təhlükəyə atmaq, ədalətsizliyə baş vurmaq heç kəsin haqqı deyil.

Bir çox elm adamının da fikrinə görə, bizi xoşbəxtlikdən uzaqlaşdıran tək səbəb "biz" duyğusundan uzaqlaşıb "mən" yanılmasına qapılmaqdır. İnsandakı "biz" halından qopuş arzuların cəngəlliyində itməsinə və daimi bir acıya səbəb olmaqdadır.

Bu gün cəmiyyətimizdəki insanların hər gün bir yenisi icad olunan texnologiyanı əldə etmə həvəsi də bitib tükənmək bilməyən arzularımızın bir göstəricisidir. Bir köhnə modelinin də işimizi görə biləcəyi halda yenisini almaq insanın təbii ehtiyacı deyil, nəfsani arzularıdır. Halbuki bu əşyaya veriləcək məbləğlə ehtiyac sahibi olan bir çox insana dəstək olmaq da olar.

# MÜƏLLİMLƏRİN YENİ ƏMƏKHAQQI QAYDASI 2024-CÜ İLİN İYUL AYINDAN QÜVVƏYƏ MİNƏCƏK



"Yeni əməkhaqqı qaydası 2024-cü ilin 1 iyulundan qüvvəyə minəcək". Bu barədə təhsil və elm naziri Giorgi Amilaxvari noyabrın 24-də Təhsil və Elm Nazirliyində müəllimlərin əməkhaqqı siyasəti mövzusuna həsr edilmiş brifinqdə bildirib.

"Hazırkı əməkhaqqı formulu üzərində işlənməli və dəyişdirilməlidir. Nazirlikdə yeni formul üzərində işləyirik və dekabrda baş tutacaq təqdimatda ictimaiyyətə geniş məlumat veriləcək. Biz fundamental islahatımızın olmasını istəyirik, buna görə də yalnız yanvardan 125 larilik artımla kifayətlənmədik, nəticəsi olmayacaqdı. Tədris ili başa çatan kimi, ilk gündən, 1 iyuldan yeni əməkhaqqı formulu həyata keçiriləcək və bu, müəllimlərin demək olar ki, 75 %-nə aid olacaq. Ümumi təhsil islahatı çərçivəsində bizim əsas qayğımız müəllimlərdir", – deyə Giorgi Amilaxvari bildirib.

Onun sözlərinə görə, dərs yükü tam olmayan müəllimlərin də əməkhaqqı artırılacaq: "Ola bilsin 500 lari artırılmadı, amma 100 laridən çox olacaq".

Məlum olduğu kimi, maliyyə nazirinin parlamentdə etdiyi açıqlamadan sonra müəllimlərdə ruhdan düşmə və aldadılma hissi yarandı. Nazir 2024-2025-ci tədris ilində müəllimlərin əməkhaqqının (tam dərs yükü olduğu halda) 500 lari və ya daha çox artacağını bildirmişdi. Müəllimlər 2024-cü ilin yanvar ayından əməkhaqlarının artırılacağını gözləyirdilər. Yeni ildən əməkhaqqının artırılması tələbi ilə pedaqoqlar Təhsil və Elm Nazirliyinə məktub göndəriblər. Həmin tələblə yaradılmış petisiyanı isə artıq minlərlə müəllim imzalayıb.

Giorgi Amilaxvari əməkhaqlarının sentyabrdan artırılacağını inkar edib. Ancaq onun bildirdiyinə görə, pedaqoqların əməkhaqqı növbəti aylar ərzində də dəyişməyəcək – söhbət 1 iyuldan gedir.

***Nazirin Təhsil və Elm Nazirliyi tərəfindən yayımlanan tam çıxışı isə bu cürdür:***

*"Mənim nazir olduğum ilk gündən Baş nazir İrakli Qaribaşvilinin güclü dəstəyi ilə ümumi təhsil pilləsində olan bütün əsaslı problemlərin aşkarlanması üzərində işləməyə və onların həlli yollarının düşünülməsinə başladıq.*

*Bilirsiniz ki, nazirlikdə ümumi təhsil istiqamətində bəzi məsələlər üzərində işlənilir. İctimaiyyət yekun nəticələrlə bağlı məlumatı dekabr ayında keçiriləcək təqdimatda alacaq.*

*Bir daha qeyd etmək istəyirəm ki, ümumi təhsil islahatı çərçivəsində bizim əsas qayğımız və obyektimiz bizim layiqli, əməkdar müəllimlərimizdir. Onların peşə inkişafı sistemini formalaşdırmaq, əməkhaqqı siyasətini yaxşılaşdırmaq və onlar qarşısında olan problemləri həll etmək bizim əsas prioritetimizdir.*

*Mən pedaqoqlarla Tbilisidə, eləcə də regionlarda fəal görüşlər keçirirəm. Onlarla birlikdə bütün aktual məsələləri müzakirə edirik və müxtəlif problemlərlə bağlı onların fikirlərini dinləyirəm. Onların qarşısında bu gün duran problemləri yaxın gələcəkdə onların iştirakı və pedaqoqların maraqlarını nəzərə alaraq həll etməyi planlaşdırırıq.*

*Müəllimlərin qiymətləndirilməsi və onlara layiqli əməkhaqqı təklif edilməsi məqsədilə yeni əməkhaqqı siyasətinin formalaşdırılması, eləcə də başqa dəstək proqramlarının təklif edilməsi həyata keçirilir.*

*Ayrı-ayrı siyasi partiyaların və onların nümayəndələrinin, həmçinin siyasi fəaliyyətlə məşğul olan şəxslərin müəllimlərin əməkhaqlarının artırılması ilə bağlı qərara kölgə salmaq məqsədi daşıyan zərərli dezinformasiya kampaniyasına başlaması tamamilə qəbuledilməzdir.*

*İctimaiyyətə xatırlatmaq istərdim ki, 2012-ci ildə, "Gürcü Arzusu" hakimiyyətə gələnə qədər müəllimlərin orta əməkhaqqı 330 lari idi. Bu gün orta əməkhaqqı demək olar ki, 300 % artaraq 1230 lari olub.*

*Bu əhəmiyyətli artıma baxmayaraq, biz hesab edirik ki, müəllimlər daha yüksək əməkhaqqına layiqdirlər və hazırda sistemdə mövcud olan əməkhaqqı formulunun işlənib-hazırlanmasına və dəyişdirilməsinə ehtiyac var. Təhlillərimiz, araşdırmalarımız və müəllimlərlə fəal ünsiyyətimiz nəticəsində nazirlik yeni əməkhaqqı formulu üzərində işləyir və onun konkret təfərrüatları, qeyd etdiyim kimi, dekabr ayında keçiriləcək təqdimatda ictimaiyyətə açıqlanacaqdır. Bununla belə, biz burada bir daha təsdiq edirik ki, yeni əməkhaqqı konsepsiyası müəllimlərin əməkhaqqı artımını ehtiva edir və hazırkı əməkhaqqı ilə münasibətdə tam qrafiklə işləmək şəraitində müəllimlərin əməkhaqqı artımı son illərdə əvəzsiz olacaq. Tam ştatlı müəllimlərin əməkhaqları orta hesabla 500 lari və daha çox artırılacaq. Bu bir il ərzində orta əməkhaqqının təxminən 35 % artmasıdır ki, bu da uzun illər müəllim korpusunda həyata keçirilməyib. 2024-cü ildə artan təhsil büdcəsinin böyük bir hissəsi məhz dövlət məktəblərində müəllimlərin əməkhaqlarının artırılmasına ayrılır. Biz əməkhaqqı siyasətində əsaslı dəyişiklik etmək və müəllimlərə layiqli əməkhaqqı təklif etmək istəyirik. Buna görə də biz daha asan qərar yolu ilə getmədik və yanvar ayından müəllimlər üçün cəmi 125 lari əməkhaqqı artımını yetərli hesab etmədik. Hesab edirik ki, bu əsas əməkhaqqı yanaşmasını dəyişə bilməzdi. Buna görə də əməkhaqqı siyasətinə yenidən baxış edərkən biz əsas diqqəti əməkhaqqının artırılmasına yönəldəcəyik.*

*Müəllimlərin əməkhaqlarını 2024-cü ilin sentyabrından artırmağı planlaşdırdığımız barədə məlumat tamamilə yalandır. Bununla əlaqədar nəzərinizə çatdırırıq ki, statusun yüksəldilməsi halında müəllimin əməkhaqqı yeni tədris ilindən, yəni 2024-cü ilin sentyabrından artacaqdı, lakin biz 2024-cü ilin sentyabrını gözləmək fikrində deyilik və cari tədris ili başa çatdıqdan dərhal sonra yeni əməkhaqqı formulunun tətbiq edilməsini planlaşdırırıq.*

*Sistemin yeni əməkhaqqı formuluna keçməsi vacibdir. Bu məqsədlə cari büdcədən ayrılan və tam şəkildə müəllimlərin əməkhaqlarının artırılmasına yönəldilmiş vəsait çərçivəsində 2024-cü il iyulun 1-dən yeni əməkhaqqı formulu tətbiq ediləcək – bu 6 aylıq şərtlərdə belə, 2024-cü ilin illik şərtləri ilə müəllimlər üçün yanvar ayından artırılacaq 125 lari əlavədən 4 dəfə çox olacaq.*

*Bu əvəzsiz və tarixi əməkhaqqı artımı islahatı prosesində bütün maraqlanan tərəfləri bizə qoşulmağa çağırırıq. Bu proses müəllimlər üçün əvvəllər heç vaxt həyata keçirilməmişdir. Bu, statusundan asılı olmayaraq bütün müəllimləri artırılmış, layiqli əməkhaqqı ilə təmin edəcək və uşaqlarımıza daha yaxşı, keyfiyyətli təhsil təklif etmək imkanı verəcək".*

# MİLLİ TƏDRİS PLANI YENİLƏNİB

Gürcüstan Təhsil və Elm Nazirliyinin təşəbbüsü ilə milli tədris planı dəyişiklikləri üzərində işlərin birinci mərhələsi başa çatıb. Yenilənmiş sənəd ictimai və özəl məktəblərə daha çox muxtariyyət verilməsini nəzərdə tutur.

Dəyişikliklər təhsil və tədrisin planlaşdırılması və idarə edilməsi ilə əlaqədar bütün komponentlərə aiddir, həmçinin təhsil-tədris prinsipləri, məqsədlər və prioritetlər, təhsil metodları, qiymətləndirmə, təhsil prosesinin təşkili ilə bağlıdır. Nəticədə təhsil-tədris komponenti ümumtəhsil müəssisələrinin dəstəyinə daha çox istiqamətlənib və məktəblərə yaradıcılıqla, şagirdin ən yaxşı maraqlarını nəzərə almaqla təhsil prosesini planlaşdırmaq şəraiti yaradır.

***Dəyişikliklərə əsasən:***

- Şagirdə istiqamətlənmiş dərin təhsil və tədrisin nəyi nəzərdə tutduğu aydın olub.
- Təhsil və tədrisin nəticələri və aralıq təhsil məqsədlərinin formalaşdığı prinsiplər müəyyən edilib.
- Müəllimlərin nəyin əsasında təyinedici və inkişaf edən qiymətləndirmə təqdim etməli olduğu prinsiplər müəyyənləşdirilib.
- Məktəb tədris planının funksiyası və əhəmiyyəti müəyyənləşdirilib.
- Milli tədris planının məqsədləri (ümumtəhsil milli məqsədlər, kvalifikasiya çərçivəsi və XXI əsrin kompetensiyalarına əsaslanaraq) yenidən yaradılıb.
- Hər bir fənn qrupu üçün pillələrə əsasən məqsədlər yenidən formalaşdırılıb. Bu məqsədlərə nail olmaq üçün özəl məktəblərə hansı fənləri tədris edəcəkləri ilə bağlı hüquq verilib (hansı təhsil nəticələrini müəyyən edəcəklər).
- Milli tədris planından metodoloji tövsiyələr çıxarılıb (illik proqramların planlaşdırılması necə ola bilər məsələsi ilə bağlı məsləhətlərin təqdim olunduğu üçüncü qapı ləğv olunub).
- Təyinedici qiymətləndirmə komponentləri (sinif, ev, yekun) və modellər ləğv olunub. Məktəblər özləri təyinedici qiymətləndirmə üçün orijinal sistem və prinsiplər yaratmalıdırlar. Həmin prinipslərə görə, məktəb sistemində yazılmış qiymətlərin köçürülməsi milli tədris planı ilə müəyyən edilmiş 10 ballıq sistemdə olacaq.
- Özəl məktəblərə sinfi deyil, pilləni aşmaq maneəsini müəyyən etmək hüququ verilib.
- Əgər şagirdin sinifdə hansısa fəndən 5.0-dən aşağı illik qiyməti varsa, məktəb şagirdə payız imtahanına qədər remedasiya (düzəliş) proqramı təklif etməyə məcburdur.
- Məktəb məktəbdən kənar qalmış və ya məktəbi tərk etməklə bağlı risk altında olan şagirdlərə tezləşdirilmiş təhsil kurrikulumu formasında remedasiya proqramı təklif etməlidir. Kurrikulumun tərkibini məktəb özü milli tədris planına əsaslanaraq müəyyən edəcək.
- Məktəb özü dərs qrafikini şagirdlərin ehtiyaclarına və maraqlarına uyğun olaraq, eləcə də məktəbin insan və maddi resursunu nəzərə almaqla müəyyən edəcək. Milli tədris planında verilmiş saat qrafiki yalnız tövsiyə xarakterlidir.
- Milli tədris planında fənn kafedraları və sinif rəhbərinin funksiyaları yazılmayacaq. Məktəblər özləri məktəb ictimaiyyəti üzvlərinin hansı funksiyaları yerinə yetirməsinə, məktəb strukturunun necə olmasına qərar verə biləcəklər.
- Özəl məktəbin xaricidilli proqramına qəbul edilmiş xarici ölkənin vətəndaşları üçün dövlət dilinin tədris səviyyələri təhsil illərinə uyğun olaraq müəyyən ediləcək (dillərin vahid Avropa tövsiyə çərçivəsinə əsaslanaraq).
- Gürcü sektorunda/məktəbdə etnik azlıq nümayəndəsi olan şagirdlər üçün 10 nəfər olduğu halda ana dilində təhsil almaq tələbini nəzərdə tutan məhdudiyyət qaldırılıb. Fərdi olaraq hər şagirdə gürcü sektorunda təhsil aldığı halda ana dilini öyrənmək imkanı veriləcək.

Qeyd etmək lazımdır ki, həmçinin dərsliklərin razılaşdırılma qaydası təsdiq edilib. Bunun əsasında, özəl və ictimai məktəbər təhsil prosesində qrifləşdirilməmiş, nazirliklə razılaşdırılmış dərsliklərdən istifadə edə bilərlər.

Xatırladaq ki, bununla yanaşı fənn standartlarının reviziya prosesi aparılır və fənn qruplarının formalaşdırılmasına başlanılıb. Buna hazırkı müəllimlər, akademik dairə nümayəndələri və psixoloqlar qoşulublar. Reviziya prosesi 2024-cü ilin yazında başa çatacaq.

*Səhifədəki məlumatlar "edu.aris.ge" və "etaloni.ge" saytlarından götürülüb.*
*Gürcü dilindən tərcümə etdi:* **Aynurə Əliyeva**

# DÜKAN YOLUNDA GÖRDÜKLƏRİM



Dükan uzaqda deyil, gedib-gəlmək yarım saat çəkər, çəkməz. Qulağımızın dibində yəni. İki-üç gündən bir yolumuz dükana düşür və düşməlidir də. Nədən ki, heç nə almasan da, yeməyə-içməyə nəsə almağın gərək. Ayaq üstə durmağın üçün nəsə yeməlisən. Bütün canlılar da belədir. Günboyu böcəklər, quşlar, heyvanlar bəs nədən tüyünürlər? – Yeməkdən ötrü. Bunu kim bilmir.

Elə bu qırmızımtıl dələ kimi. Hasarın üstündən küknar ağacına atılması, ürkək-ürkək o tərəfə, bu tərəfə boylanması, qozaları əmzim-əmzim palıda doğru can atması boşuna deyil. Qarnını doyurmaq istəyindəndir. Bir də, ola bilər ki, gözdən iraq, könüldən qıraq bir daldada balaları yemək gözləyir. Bu da anadır, balalarını ac saxlamayacaq ha. Özünü oda-közə vuracaq ki, çolma-cocuğunu doyursun, başlarını günə gətirsin. Bəs ana başqa cür necə olmalıdır, sizin ağlınızca? Ana elə belə olur da. Üstəlik qabaqdan da soyuğu, şaxtası, qarı-çovğunu ilə yağı kimi qış gəlir. Qışdan çıxmaq gərək deyilmi? Qış qapısının ağzını kəsdirəndə kimə ağız açacaq? Elə qış hazırlığını, ehtiyatını da indidən görmək lazımdır.

Əstəğfürullah, mən dükan-bazara çıxırdım axı? Bu heyvancığaz haradan qabağıma çıxdı, məni yolumdan elədi.

Evin arxa tərəfindən ön tərəfinə keçib küçəyə çıxıram. Ev deyəndə təmir etdiyimiz evi deyirəm. Ağlınıza başqa şey gəlməsin. Elə düşünməyin ki, ev-zad almışam. Siz Allah, məni dilə-ağıza salarsınız, qoyun durduğum yerdə durum. Avropada ev sahibi olmağı asan bir şey sanmayın. Ev sahibi olmaq üçün bir ətək pul gərək. O da, nə gizlədim, bizi kimi adamlarda yoxdur. Bu gedişlə də olması mümkünsüz. Pul atlı, mən yayaq. Söz məsəli yəni.

Mən Steenokkerzeelin dümdüz küçələrindən biri ilə addımlayıram. Steenokkerzeel Brüssel ətrafında bir kənddir. Kənd deyəndə də birtəhər çıxır. Onun şəhərdən heç bir fərqi yoxdur. Paytaxta 10-15 dəqiqəlik bir məsafədə yerləşir, Brüssel hərbi-hava limanının 4 kilometrliyində. Küçələri asfaltlı, tər-təmiz, ən maraqlısı da xətkeşlə çəkilmiş kimi. Nəhəng palıd, yabanı şabalıd, küknar ağaclarının arasında təbiətlə harmoniyada inşa edilmiş evlər xarici görünüşcə təkrarsızdır. Bir-birindən kəskin şəkildə fərqlənir. Hərəsi bir gözəllik, hərəsi bir tamaşa. Hərəsinin öz görünüşü, öz sifəti. Hündürlüyü az qala buludlara çatan bu ağaclar buraların vaxtilə meşəlik olmasından xəbər verir. Belə olmasa da, gördüyüm Avropa ölkələrində meşə sahələrinin miqyası məni belə düşünməyə vadar edir.

Yolboyu düzülmüş evlərin gözəlliyi bir yana, həyətlərdə insan əlinin insan ağlı ilə birləşərək yaratdığı yaşıllıqlar, çiçəkliklər adamı valeh edir. Bəzi evlərin həyəti həmişəyaşıl ağaclardan ibarət çəpərlərlə əhatələnib. Hündürlüyü bir adam boyundan da yüksək olan bu çəpər-hasarlar mahir saç ustasının əlindən yenicə çıxmış kimi göz oxşayır. Baxımlı, səliqəli. Bu yaşıl hasarların arxasındakı evlərin pəncərələri, damları yad baxışlardan özünü gizləmək istəyən yaşınmış qadın görkəmini xatırladır. Köhnəlikdən, nimdaşlıqdan əsər-əlamət gözə dəymir. Təzə gəlin misalı. Kəndin küçələrində, meydanlarında nə bir toza, nə bir gölməçəyə, nə də zir-zibilə rast gələ bilməzsən. Nə başınızı ağrıdım, "yağ tök, yala".

Küçələr adamsız. İns-cins gözə dəymir. Qu desən qulaq batar. Hərə öz işində-gücündə, evində-eşiyində. Heç uşaq səsi də eşidilmir. Sükutu ana yolda şütüyən maşınların təkərlərinin səsi və hava limanına eniş edən təyyarənin gurultusu pozur. Arada kiminsə işlətdiyi elektrik burğusunun səsi də gəlir. Görünür kimsə evində təmirlə məşğuldur. Evin təmiri, səliqə-sahmanı ilə məşğul olmaq buralarda bir hobbidir. Əslində bir həyat tərzidir deməm daha doğru.

Ana yola çıxıram. Yanımdan maşınlar güllə kimi keçir. Velosiped yolunun kənarıyla irəliləyirəm. Yabanı şabalıd ağacları yarpaqlarını töküb. Payızın əlamətidir yəqin. Havaların yağara düzülməsi də payızın yaxında olmasından xəbər verir. Sən Allah, toy şaxı kimi bəzənmiş alma ağaclarına bir bax! Çılçıtraq, budaqları burnuna qədər qıpqırmızı payız alması. Bu da 5-10 günə biçiləsi qarğıdalılıq. Bu da yeyib doymuş inəklərin örüş yeri. İnəklər gələnə-gedənə tamaşa edirmiş kimi uzanıb gövşələməlilərində. Daha nə edəsidirlər ki? Allahdan ölüm istəyəsi deyillər ki? Yeməkləri az qala ağızlarının içində, içməkləri burunlarının ucunda. Yelinləri də südlə dolu, paçalarının arasına sığmır. İndi də səvərib yediklərini sinirməkdədirlər.

Az qala yolu keçməyi unudurdum. Ayağımı piyada keçidinə basıram. Sağdan-soldan gələn maşınlar səbirlə mənim yolu keçməyimi gözləməkdə. Mən başımı aşağı salıb yolu keçirəm. Heç bir təhlükə gözlənilməsə də, gözaltı sağıma-soluma diqqət yetirməyi də unutmuram. Dəliyəmmi, canımı çöldənmi tapmışam, ağlımı əppəklə yeməmişəm ki, baxmayam? Nə edim, ağlım biz tərəflərə gedir. İşıqfora, piyada keçidinə əhəmiyyət verməyən özümüzünkülər gözümün qarşısında canlanır. Ana yolu keçərkən, darmacalda niyə bizdə də belə deyil sualı qafamda ildırım kimi çaxır.

Nəhayət "Aldi" supermarketinə çatıram. Mağazaya girib-çıxanlar çoxdur. Hamı tibbi maskada. Mağazanın girişində dezinfeksiyaedici vasitələrdən istifadə sərbəstdir. Alıcı nə almasından asılı olmayaraq içəri alış-veriş arabasıyla girməyə borcludur. Araba alıcılar arasında koronavirusa görə tələb olunan məsafəni tənzimləyən bir vasitə rolu oynayır. Mən də bütün bu tələblərə əməl etmək məcburiyyətindəyəm. Hər dəfə alış-verişə gələndə "bazara girdin, gördün gözü qıpıq, sən də ol gözü qıpıq" məsəlimizin beynimin harasındansa özünü düşüncələrimin arasına pərçim edir. Bu fikirlərimi demədən yazının son nöqtəsini qoymaq istəmədim.

...Deyəsən, yazım uzun alındı. Özüm də fərqindəyəm. Lütfən qüsur saymayın...

**Afiq Muxtaroğlu**
*Belçika Krallığı, paytaxt bölgəsi*

# KİÇİK ADDIMLARDAN ZİRVƏYƏ




Sizi bilmirəm, mən elə qəribsəmişəm ki seçilmişlər sırasında millətimizin adını görmək üçün. Axı biz yaşadığımız tarixdə dost gürcü xalqı və dövləti üçün daim həmfikir, həmdəm olmuşuq.

Dönüb tarixə baxsaq Xudu Borçalının İrakli səltənətində qazandığı etibardan Pəri Sofiyevanın parlamentdə qoyduğu ilk imzaya qədər, sovet dönəmində də həmçinin. Keçid dövrünün sükunətindən sonra son illərin inteqrasiya siyasəti məni də çoxlardan biri kimi sevindirməyə bilməzdi.

İllərdir Müəllimlər Gününü məlum tarixdə qeyd edirdik, bu il fərqləndi. Xüsusi fərmanla 27 oktyabr Gürcüstanda Milli Müəllim Günü kimi qeyd olunacaqdı. Bu münasibətlə Tbilisi Opera və Balet Teatrında Baş nazir və təhsil nazirinin iştirakı ilə böyük bir tədbir keçirildi. Ölkəmizin bütün inzibati bölgələrindən öz işində fərqlənən müəllimlər bu yığıncaqda qonaq qismində iştirak edirdilər. Sonda nazir Milli Müəllim Günündə 11 nəfər müəllimin Milli Müəllim Mükafatıyla təltif olunduğunu elan etdi. Etiraf edim ki, kimsə təltif olunanların kim olduğunu bilmirdi. Siyahıda bir ad dinləyici olan bizləri qürurlandırmaya bilməzdi: Marneuli bələdiyyəsinin Qasımlı ictimai məktəbindən Samirə İsmayılova.

Kimdir Samirə İsmayılova?!

1989-cu ildə Borçalımızın Gorarxı dediyi bir eldə dünyaya gəldi. Alget 1 saylı məktəbi bitirdi. İngilis dili müəllimi olmaq arzusunda idi. İstəklərini dilə gətirməyi sevməz, istədiyini etməyə çalışan və edən biri idi, "kirimiş-kirimiş" öz yolunu gedən, məqsədə addımlayan... Elə bu deviziylə məzun oldu. 2011-ci ildə artıq ingilis dili müəllimi kimi Alget 2 saylı məktəbdə fəaliyyətə başladı. Sonra işini ailəsinin məskunlaşdığı Qasımlı məktəbində davam etdirdi. Addım-addım irəlilədi. Dövlətin, cəmiyyətin nəbzini tutmağı bacardı. Təhsil Nazirliyi müəllim üçün hansı yeniliyi tətbiq etdisə o istiqamətdə özünü inkişaf etdirdi. İmtahanlarda, layihələrdə iştirak etdi. Baş müəllim, sonra özünü inkişaf etdirərək aparıcı müəllim oldu. Bununla da kifayətlənməyərək növbəti statusu fəth etməyi bacardı. Artıq Marneulidə az sayda olan mentor müəllimlərdən biridir.

2018-ci ildən Britaniya konsulluğunun layihələrində iştirak edib, Norveç dil institunda intensiv kurs keçib, həmçinin Britaniya konsulluğunun seminarlarında fasilitator olub. Bu fəaliyyət yolunu xeyli sadalamaq olar, hazırda ABŞ-ın Gürcüstandakı Səfirliyi Arizona Universitetinə namizədliyini irəli sürüb. Gürcüstanda isə Amerikaşünaslıq üzrə ikinci təhsil alır.

Samirə müəllim 2017-ci ildən Qasımlı ictimai məktəbi ilə Sülh Korpusu beynəlxalq təşkilatıyla əməkdaşlıq edir. Xüsusi ingilis dili kabineti təşkil edib. Şagirdlərə əyləncəli motivasiya ilə dil öyrətmək, həmçinin ictimaiyyətə qatılmaq yollarını öyrədir.

Samirə müəllim düşünür ki, bu kiçik addımlarla böyük gələcəyə addımlamaq olur, axı o özü də bugünkü böyük nəticələri elə o kiçik addımlardan başladı.



Sizə kiçik addımlardan başlayan yolunuzda daha böyük zirvələr arzu edirəm, əziz həmkar! Addımlarınızın sədası elimizin hər məktəbində əks-səda versin. Sıranızın davamını görmək ümidi ilə!

**Esmira Ələkbərli**
*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# ABİTURİYENTLƏRƏ TÖVSİYƏ



Başlıqdan da məlum olduğu kimi, mövzumuz abituriyentlərdir. Deməli, məni tanıyanlar, əsas da övladları abituriyent olanlar dayanıb mənimlə qısa bir müddət danışmağı özlərinə borc bilirlər. Təbii ki, bunun səbəbi indi övladlarının getdiyi yolları bir il əvvəl mən və mənim kimi abituriyentlərin getməsidir. Onların son zamanlar düşüncələrini zəbt edən tək şey övladlarının universitetə daxil olub ali təhsil almalarıdır. Buna görə çoxdan övladlarını əlavə hazırlıq üçün müəllim yanına qoyublar. Məni görəndə də sual verirlər ki, mən övladımı filan müəllimin yanına qoymuşam və bilmək istəyirəm yaxşı dərs keçirmi, keçdikləri imtahana düşürmü...

Əvvəlcə bunu deyim hamı rahat olsun: bütün hazırlıq müəllimləri istiqamətlərini imtahan üzrə götürüb dərs proqramını ona əsasən tərtib ediblər. Qısaca olaraq bəli, demək olar keçdikləri bütün mövzulardan sual düşür. Amma abituriyentin universitetə qəbul olunması hazırlığa getdiyi müəllimdən daha çox özündən asılıdır. Hazırlıqda keçilən hər bir mövzu məktəbdə geniş bir şəkildə keçilir. Tək fərq məktəbdə sualın cavabını tapmaq üçün həllinin uzun-uzadı, açıq və geniş şəkildə yazılması, hazırlıqda isə vaxt məhdudiyyəti olduğundan düzgün variantın ən tez hansı üsuldan, düsturdan istifadə olunaraq tapılmasındadır. Hazırlıq məktəb dərslərinin təkrarına bərabərdir desək səhv olmaz. Bəziləri elə düşünürlər ki, elə bil müəllim hazırlıqda qeyri-adi nəsə öyrədir. Ona görə də hazırlığa getməyi vacib məsələ sayırlar, zamanlarını yalnız buna sərf edirlər. Halbuki müəllimlər özləri tək onların keçdiyi dərslərin yetərli olmadığını deyirlər. Şəxsən mənim hazırlıq müəllimim hər dərsin sonunda onun verdiyi tapşırıqlarla kifayətlənməməyimizi, evdə özümüzün də əlavə məşğul olmağımızı dəfələrlə dilə gətirirdi.

Bir də, bəzi şagirdlərdə belə bir xüsusiyyət var: on iki illik məktəb həyatlarının on bir ilini dərslərə biganə yanaşmaqla keçirirlər, on ikinci sinifə çatanda da düz-əməlli təməli olmadan gedirlər hazırlığa. Yuxarıda da dediyim kimi, hazırlıq sürətli təkrar kimi bir şeydir və əgər sən ən sadə riyazi əməli həll etməyi məktəbdə öyrənməyibsənsə, təməlin yoxdursa, bu, vaxtını boşa xərcləmək deməkdir. Belə vəziyyətdə nəsə öyrənə biləcəyinizə inanmayın. Başdan asan olsa da mövzular sonradan sizə görə çətinləşməyə başlayacaq. Uzun sözün qısası, universitetə qəbul olmaq üçün hazırlığa getmək fikriniz varsa riyaziyyatdan təməliniz olmalıdır, yoxdursa qurmağa başlayın.

Bu mövzuya da toxunduqdan sonra keçək yazının "qaymaqlı" hissəsinə.

Gürcüstanın imtahan sistemi əksər abituriyentlərə aydındır. Universitetə qəbul olmaq üçün qarşılarında iki seçim var:

1. "1+4" proqramı üzrə riyaziyyatdan və verbal hissədən imtahan verib hazırlıq kursuna daxil olmaq;

2. Gürcü dilindən, bir xarici dildən (bunlar mütləqdir) və öz seçdiyi fəndən imtahan verərək birinci kursa daxil olmaq.

Təbii ki, ikisindən birini seçmək imkanı var, bu, öz yerində. Bizim kimi etnik azlıq təşkil edənlər üçün isə ən sərfəlisi birincini seçməkdir. Çünki belə olduqda imtahanı öz ana dillərində vermiş olurlar. Burada bir il oxuyub gürcü dilində biliyini dərinləşdirdikdən sonra bakalavr oxumağa başlaya bilərlər. Bu da öz yerində. İşin məni maraqlandıran tərəfi niyə bu hazırlıq kursuna daxil olmaq üçün riyaziyyatdan və verbal hissədən imtahan verildiyidir. Olmazmı ki, bizdə də ikinci variant kimi olsun. Demirəm riyaziyyat qaldırılsın, əksinə, başqa fənlər də əlavə olunsun. Hərə öz peşəsinə uyğun imtahan versin. Tibb oxumaq istəyən şəxsin biologiya və kimya kimi fənlərdən imtahan vermək əvəzinə riyaziyyat üzrə pedaqogika oxumaq istəyən abituriyentlər kimi eyni fəndən imtahan verməsi nə dərəcədə düzgündür? Bu hissəni saymasaq "1+4" proqramı çox düzgün seçimdir. Doğrudur, əvvəlki illərlə müqayisədə gürcü dilini bilən azərbaycanlıların sayı daha çoxdur, lakin yenə də bu layihə bir müddət yenə davam etsə yaxşı olar. Çünki hələ də ucqar bölgələrdə yaşayıb gürcü dilini bilməyən şagirdlər çoxdur. Sadəcə imtahan mövzusu bir az genişlənməlidir. Bu da abituriyentlərin əlində deyil. Onların əlindən gələn tək şey mövcud sistem üzrə imtahana hazırlaşmaqdır. Özü də necə hazırlaşmaq. Artıq bəziləri riyaziyyatı həyatlarının tam ortasına yerləşdiriblər. Sosial şəbəkələr bağlanıb, filmlərə baxmırlar, kitab oxumurlar, musiqiyə qulaq asmırlar, heç kimlə əvvəlki kimi ünsiyyət qurmurlar, düz-əməlli yemək yemirlər, yuxu yatmırlar və sairə və ilaxır. Bir sözlə, əvvəlki rejimləri pozulub. Tək məqsədləri qəbul olmaqdır. Axı ondan sonra hər şeyin düzələcəyinə inanırlar. Ən çətini qəbul olmaqdır deyə düşünürlər. İndiki həyatları coşğun çay kimi gəlir onlara, hansı ki, qəbul olduqdan sonra dərəyə dönəcək deyə düşünürlər. Amma görəsən imtahana hazırlaşmaq budurmu? Məncə, xeyr.

Əziz abituriyentlər, siz öz məqsədinizə çatmaq üçün öz həyatınızın rəngini soldurmamalısınız. İmtahana hazırlaşmaq gecə-gündüz dərs oxuyub-yazmaq deyil. Artıq məktəb bitir, müstəqil həyat başlayır. Bu həyatda eyni vaxtda bir neçə şeyi etməyi öyrənmək lazımdır. Demirəm hazırlaşmayın, hazırlaşın. Sadəcə özünüzü tək bununla məhdudlaşdırmayın. Kitab da oxuyun, musiqiyə də qulaq asın, filmə də baxın, gəzin, düzgün rejimdə yatın, yemək yeyin. Seçdiyiniz peşə haqqında araşdırmalar edin, əlavə dillər öyrənməyə çalışın. Zamanınızı düzgün bölüb səmərəli istifadə etməyi öyrənin. Əgər siz günün iyirmi dörd saatını düzgün bölə bilməyib yalnız bir şeyə həsr edirsinizsə, imtahanda 3-4 saatı necə düzgün böləcəksiniz? Bir mövzu üzərində çalışıb vaxtınızı itirməyəcəksiniz ki. Ona görə bir şeyə fokuslanmayın. Yoxsa imtahandan sonra həyatınızda boşluq yaranacaq. Allah eləməsin, əgər imtahandan istədiyiniz kimi nəticə almasanız o boşluq qara dəlik olub sizi udacaq. Özünüzü ələ alıb yenidən başlamaq çətin, bəlkə də inamsız olacaq. Heç nəyə həvəsiniz olmayacaq. Buna görə də hobbilərinizi tərgitməyin. Bəli, içi mən qarışıq, qəbul imtahanı hamımızın illərdir xəyalını qurduğumuz həyatın qapısı deməkdir. Bu qapı daha uzun yola açılır və bu yolda yerimək üçün inkişaf etmək və iradə qazanmaq lazımdır. Ona görə ki, qəbul imtahanı son deyil. İmtahanlar hələ yeni başlayır və biz bu dəfə bir çox şeyi eyni vaxtda yerinə yetirməyi bacarmalıyıq. Yəni indidən öyrənməyə başlayın.

Hamınızın tələbə adını qazanması diləyi ilə...

**Çiyalə Osmanova**
*Tbilisi Dövlət Universitetinin hazırlıq kursunun tələbəsi*



# İNSANIN TƏBİƏTLƏ BİTMƏYƏN MÜHARİBƏSİ

Bildiyimiz kimi, müharibə iki və ya daha çox ölkə arasında baş verir. Biz müharibənin təkcə insanlar arasında baş verdiyini düşünürük, amma elə deyilmiş. İnsan təkcə insanlarla deyil, təbiətlə də müharibə edir.

İnsanlar təbiətlə müharibədə hər zaman məğlub olurlar. Müharibədə hər tərəf öz mənfəətini güdür və işğal edilmiş yerlərinin davasını edir. İnsanın təbiətlə müharibəsi isə əksinə olur. Biz öz həyatımızı öz əllərimizlə məhv edirik. Bu müharibədə qazanan tərəf olmur. Hər iki tərəf də məğlub olur. Belə ki, bizim ətraf mühitə vurduğumuz hər bir ziyan, zərər nə bizim, nə də təbiətin xeyirinə olur. İnsan özünü də məhv edir, təbiəti də. Çünki qazanmırıq, sadəcə itiririk.

İnsan və təbiət ayrılmazdır. Çoxlarımızda suallar yarana bilər, insan və təbiət necə ayrılmazdır? İnsan və təbiət bir-birinə necə bu qədər bağlıdır? Bəli, bağlıdır. Çünki bizim hər nəfəs almağımız üçün təbiətin təmiz havasının olması vacibdir. Daha doğrusu, yaşayırıqsa bunda təbiətin rolu böyükdür. Təbiət olmasa insan necə yaşaya bilər. Bir dəqiqə nəfəsimizi tutduqda o an öləcəyimizi fikirləşirik. Çünki insan nəfəs almadan yaşaya bilməz. Nəfəs alırıqsa bunda təbiətin yaşıllığı, saysız ağacları və ən əsası da "çirkləndirmədiyimiz" havasının rolu böyükdür. Bəli, "çirkləndirmədiyimiz"... Təəssüf ki, daha çox çirkləndiririk – zibili zibil qabına atmaq üçün yerimizdən qalxmağa ərinirik, hara gəldi ocaq qalayıb manqal qururuq, siqareti söndürməmiş yerə atırıq, zibili axar sulara tökürük, maşınlarımızın zəhərli qazı, zavod və fakriklərimizin tüstüsü və sair.

Başa düşə bilmirəm, küçələrdə, yollarda o qədər zibil qabları var, bu qədər zibil qabını bəzək üçünmü qoyublar? Düzdür, əvvəllər bu qədər zibil qabı yox idi. Həmişə hər kəs şikayət edirdi ki, zibil qabı yoxdur, zibilimizi hara tökməliyik. Amma indi var. Zibil qablarının dili olsa deyər: "ay camaat, zibili yerə atmayın, məni görmürsünüzmü, yəni o qədərmi balacayam ki, görmürsünüz"...

Biz niyə təbiətlə müharibə edirik? Hər bir insan bu sualı özünə verməlidir. Biz niyə öz sağlamlığımızı öz əllərimizlə məhv edirik? Belə edən insanlara yəqin təbiətin havası artıq gəlib. Çünki başqa söz tapa bilmirəm deməyə. Ya havası artıq gəlib, ya da ağlı havasız qalıb.

Unutmayaq! Daha çox ağac əkərək oksigeni artıra bilərik. Təbiəti təmiz saxlayaraq təmiz nəfəs ala bilərik. Təbiəti təmiz saxlamaq bizim borcumuzdur. Təmiz təbiət təmiz və sağlam gələcək deməkdir!

**Validə Fətullayeva**
*Tbilisi Dövlət Universitetinin hazırlıq kursunun tələbəsi*

# "KOROĞLU"NUN ƏXLAQİ-ESTETİK ƏQİDƏSİ

Elizbar CAVELİDZE



*(əvvəli ötən sayda)*

İkincisi, Koroğlunun qoşqusunun strukturu metrik sistemə əsaslanır, bu da hecaların miqdarına uyğun olaraq ikiyə bölünür: səkkiz və on bir hecalı sətirlərlə tərtib edilmiş dörd sətirliyə, yaxud bəndlərə. Qısası, həmin çoxhecalı şeirlərin bəndlərinin sayı bir və doqquz arasında olur, halbuki, hər halda qeyd etməliyəm, ən çox üç, dörd, beş və altı bəndli ölçü ilə və ya səkkiz hecalı, on bir hecalı ölçü ilə yazılmışdır ki, bunların da sətirləri ya səkkiz hecalıdır, ya da on bir hecalı. Təhlil olunan eposun şeirləri yalnız və yalnız iki ritmik sxemlə (səkkiz-on bir hecalılar ilə) qurulub və başqa ölçüləri istisna edir. Səkkiz hecalı sətir müxtəlif hecalar yanaşmasına yol verir, 1, 2, 3 və 4 hecalı sözü möhkəm, hədd ayırıcısı hesab edə bilərik, çünki Koroğlu eposunu əhatə edən nə səkkiz hecalı, nə də on bir hecalı şeirlərdə beş hecalı söz bizə rast gəlmir. **Dəmirçioğlu** öz adını beş hecalı təqdim edəndə bir hal müstəsna təşkil edir (Bax: "Koroğlu", səh. 124-125). Elə burada qeyd etməliyəm ki, konkret halda o ritmik sxemə uyğun gəlir. Lakin başqa halda bu adın bu cür üzərə çıxarılması ritmik sxemi pozur, daha düzgün olar ki, o, **Dəmirçoğlu** olaraq yazılsın, bu da ölçü sxeminə uyğun olar.

Səkkiz hecalı sətirlə yazılmış bəndlərin sətirlərində hecalara yanaşma kəskin şəkildə qorunub. Bu da, artıq qeyd etdiyim kimi, hecaların istənilən yanaşmasına yol verir (müstəsna hal barədə yuxarıda sizə bildirdik), nəhayət bizə səkkiz hecalı sətir verir. Məsələn: 1+1+2+4= 8; 2+2+2+2=8; 2+3+3=8; 3+2+3=8 və ya 3+3+2=8 və sair. Çox az hallarda bəndin mikrostrukturunda hecalara yanaşmanın bir növ sxemi özünü göstərir, bu da daha çox hecaların harmoniyasını yaradır. Məsələn, şeirlərin birinin ikinci bəndi bu cür sxemlə yazılmışdır: 3+2+3=3+2+3=8; 3+2+3=8 və bu cür yanaşma növbəti bəndlərin ayrı-ayrı sətirlərində də hiss olunur: 3) bəndin I-II sətri və 4) bəndin I və II sətri 3+2+3 və sair.

Beş hecalı sözün istisnalığına gəldikdə, nəsə öz adını – **Dəmirçoğlu** yaradır, şeirin birinci bəndinin ritmik sxemi belə görünür: 8/9/8/9 və hecaların bu cür yanaşmasını bizə verir: 1) 2+2+2+2=8; 2) 5+2+2=9; 3) 4+2+2=8; 4) 5+2+2=9 (Bax: "Koroğlu", səh. 374). Sətirlərin bu cür yanaşması düzələr, əgər (Dəmirçoğlu) yazsaq, bu da ərəb yazısı ilə tamamilə düzgündür və düzgün bənd alarıq: 8/8/8/8. Lakin elə burada qeyd edirəm ki, birinci sxemi də, eləcə də səkkiz və doqquz hecalı bir növ simmetrik yanaşma kimi hesab edə bilərik: 8>9/8>9, barı bu yanaşmanı hər halda istisna hal olaraq hesab etməliyik, çünki yeganə nümunədir.

11 hecalı ölçü ilə yazılan şeirlərin bəndləri barəsində bildirmək istəyirəm ki, bu halda da sətirlər arası izoterizm kəskin şəkildə qorunub. Sətrin hüdudlarında hecaların istənilən yanaşması (beş hecalı sözlərdən başqa) yol veriləndir. Qısası, istənilən seqmentlərin yanaşması 1+2+3+4+5 məqbuldur, başlıcası odur ki, bu yanaşmaların cəmi bizə on bir hecanı verir. Elə burada xüsusilə qeyd etməliyəm ki, 8 və 11 hecaların sezurası (durğu) yoxdur ki, bu da gözü iki-ikiyə bölür. Bu sətirlər bir bütöv böyüklüyü təşkil edir ki, bu da hecaların istənilən qarşılıqlı yanaşmasına yol verir. Məsələn: 2+2+2+2+3=11; 3+3+2+3=11; 3+3+2+3=11; 3+3+2+3=11; 3+3+2+3=11. Qeyd olunan sətirlərdə hecaların yanaşmasının simmetrikliyi sətrin çərçivəsində olduğu kimi, eləcə də bənd səviyyəsində sətirlərin ölçü eyniliyi ilə özünü büruzə verir. Lakin bu cür hecalar yanaşması sxemi kanonik deyildir və təsadüfi xarakter daşıyır. Artıq qeyd etdiyim kimi, sətir səviyyəsində istənilən hecalar yanaşması yol veriləndir və təbiidir də: 1+2+3+1+2+2=11; 1+3+1+1+2+3=11; 2+2+2+2+3=11; 1+3+4+3=11; 2+2+4+3=11; 2+4+2+3=11; 1+3+1+1+2+3=11; 3+3+3+2=11; 2+4+1+2+2=11; 2+4+1+1+3=11; 1+3+1+1+2+3=11 və sair.

Sözü uzatmamaq üçün bu yekun nəticəni çıxarda bilərik: şeirin bənd strukturunu ritmin mikrostrukturu müəyyən edir ki, bu da nizama salınmış ölçü meyarı ilə müqayisə olunub və müəyyən mənada zənginləşdirilib, musiqinin, daha doğrusu, fərqli mahnının müxtəlif melodiyası ilə doldurulub.

Yuxarıda artıq qeyd etdim ki, "Koroğlu" eposu aşıq mahnıları repertuarı ilə zəngindir. Eləcə də məlumdur ki, aşıq poeziyası şeirinin əsas forması qoşmadır ki, bu da müxtəlif növlərə ayrılır: düz qoşma, yedəkli qoşma, ayaqlı qoşma, zəncirləmə qoşma, qıfılbənd qoşma, qoşayarpaq qoşma və sair.

Bu dəfə bizi qoşmanın təhlil olunan eposda rəst gəldiyimiz növü maraqlandırır. Bu düz qoşma başqa cür olaraq "adi" qoşma kimi xatırlanır və bir qayda olaraq on bir hecalı ölçü ilə yazılır, bir neçə bənddən təşkil olunur. Şeirin strukturunu belə ritmik sxem yaradır: **ØaØa bbba, ccca** və sair və ya **abab cccb qqqb** və sair. Koroğlunun bütün on bir hecalı qoşquları məhz elə bu cür sxemlə təqdim olunur. Lakin on bir hecalı şeirdən səkkiz hecalı şeir çox olmasa da az rast gəlinmir, həmin sxemi təkrar edir. Halbuki bu cür hecaların miqdarının bir-birini əvəz etməsi xalq poeziyası üçün yad deyildir və tamamilə təbii görünür, illah da, əgər xatırlasaq ki, türkdilli folklorda bu şeir formasının dastanı mövcuddur, bu da on bir və ya səkkiz hecalı şeir ilə yazılır, xüsusi melodiya ilə oxunur. Şeirin bənd strukturunun sxemi isə belədir: **aaab, sssb, qqqb** və sair. Bu cür durumda mahnının melodiyasını mühüm olaraq hesab edə bilərik ki, bu da elə eyni formanın müxtəlif növünü yaradır. Elə burada qeyd etməyi lazım bilirəm ki, təhlil olunan şeirlərdə bəndin ikinci və ya dördüncü sətrində bizə rədif rast gəlir – ayrı-ayrı ritmik hecanın, sözün, cümlənin təkrarı ilə. Belə ki, bu şeirin əsas fikrini vurğulayır və semantik olaraq bəndlərdə sərgilənən fikir layını bağlayır.

Düşünürəm ki, təhlil olunan eposun aşıq şeiri-qoşma tematikasına toxunsam, həmin semantik dairələr olaraq təqdim etsək artıq olmaz.

a) Əksəriyyəti Koroğlu şəxsiyyətinin təbiət-xarakterini, onun sarsılmazlığını, barışmazlığını və mükəmməl döyüş sənətini, Koroğlunun özü, aşıq Cünun və dəlibaşların oxuduqlarını bizə təqdim edir;

b) Koroğlu və Nigar xanımın eşq duyğularının əks olunması;

c) Koroğlunun məsləkdaşlarının: Dəmirçioğlu, Ayvaz və başqalarının igidliyi və eşqə mübtəla olma sərgüzəştləri;

ç) Xanımların gözəlliyinin və onların ağıl və zəkalılığının verilməsi;

d) Dərdli, narahat, ürəyi dağlı insanın kədəri;

e) Paşaların, bəylərin, şahların vəhşiliyi;

ə) Təbiətə qarşı münasibət;

f) Atlara qarşı fərqli münasibət;

g) Savaşı əks etdirən mənzərələr və döyüşə çağırış;

ğ) İgidlik inancı və məcəlləsinin qaydaları;

q) Yumorun büruzə verilməsi;

l) Deyişmə janrı;

m) Qurdoğlunun ortaya çıxması və sair.

Təbiidir ki, tematik dairə eposun semantik məkanına tamamilə uyğun gəlir. Demək mümkündür ki, aşığın bu mahnısı bu və ya digər qəhrəmanlıq epizoduna, istərsə də mübariz igidin portretinin çəkilməsində və təsvir olunmasında müəyyən nüansı və çaları daxil edir.

Təbiidir ki, əsərin qoşmalarının əksəriyyəti Koroğluya aiddir. Çünki bu qəhrəmanlıq eposunun əsas obrazı məhz elə odur. Belə ki, bu əsərdə əks olunan ibadətgahı, başqa cür desək, verilən bütün fəaliyyət məkanını, yaşayış yerini və həyat tərzini və məqsədini o idarə edir. Bəli, Koroğlu təkcə haqsızlığa qarşı mübarizə aparan  əsas qəhrəman deyil, eləcə də o, həmin dövrlər mövcud olan zorakılığın məhvedicisi, ümumiyyətlə, əxlaqi dolğunluğun və həqiqi cəngavərlərin rəmzidir. Buna görə də onun adını eşidəndə paşalar və bəylərin canına titrətmə düşür, onun əfsanəsi əyanlar nəslindən olan xanımları eşqə mübtəla edir. O, igidlərin fəxridir və ən başlıcası, o, xalqın xilaskar cəngavər qəhrəmandır. Buna görə də aşıq Cünun onun şöhrətini aləmə yayır və onu belə qələmə verir: Qorxmadan, heç kəsə bildirmədən öz nərəsi ilə paşaların qoşunlarının sayını azaldır, onların qanlı başlarını dığırlayır, düşmənləri cəhənnəmə vasil edir, erkək aslan kimi nəriləyir, paşaların və bəylərin canına titrətmə salır və nəhayət, 72 dəliyə başçılıq edir (Bax: "Koroğlu", səh. 106-107; "ქოროღლი", səh. 40).

Cünun, demək olar ki, onu tərif etməkdən yorulmur. Qıratın belində, dəlilər yanında dağları, daşları gəzdiyinin, hərdən acıqlanıb nərə çəkərək yağıların bağrını əzdiyinin, meydana girəndə hünər eylədiyinin, leşi leş üstə qaladığının, yüz sar gəlsə bir tərlana nə edə biləcəyinin, laçın tək havada süzdüyünün, mərd meydanından qaçmadığının, dəliləri başında cəm gördüyünün, tər savaşında düşməni sındırdığının və sair  mənzərələrini bizə nəql edir (Bax: "Koroğlu", səh. 107; "ქოროღლი", səh. 141).

Tamamilə təbiidir ki, Koroğlunu dəlilər, xanımlar və başqaları tərif edirlər, şöhrətləndirirlər. Lakin onun özü barəsində nə düşünməsi və öz şəxsiyyətini necə təqdim etməsi daha çox diqqətə layiqdir. Elə eposun başlanğıcında Dəli Həsənlə savaşmamışdan öncə Koroğlu bu cür xarakterizə edir ki, meydana girəndə meydan onundu, Qıratı köhləndi, özü qəhrəman, çalar qılıncı, düşmən onundu. Meydana girəndə meydan tanıyan, haqq vergisinə qane olan, bir igiddir, igidlərin xanıdır. Bu ətrafda bütün hər yan onundur. Gündoğandan ta günbatan onundur. Eyni zamanda o hesab edir ki, igid meydana girəndə qaynayıb coşmamalıdır. Əgər olsa haqqın səsi qismətdən qaçmamalıdır. Onu da qeyd edir ki, igid igidin payına köndələn düşməməlidir. Meydana çıxanda onun üçün bir olmalıdır – düşmən əllidir, yoxsa yüzdür. Lakin döyüşçü həddini aşmamalıdır. Ona görə də Dəli Həsəndən xahiş edir ki, and içmişəm, bu gün döyüş olmasın. Yoxsa aslan kimi cuşa gələrəm, qarı düşmən dərələrə tökülsün. Qaçıb çıxar olsan göyə, kəmənd tullayıb tutaram. Qollarını daldan çataram. Çəkib Hələb bazarında səni qul kimi sataram (Bax: "Koroğlu", səh. 30-32; "ქოროღლი", səh. 36-38).

Bu cür özünü təsəvvür etməni müasir oxucu lovğalıq və təkəbbürlük hesab edə bilər, lakin Orta əsrlərdə döyüşdən öncə döyüşçülər özlərini bir-birilərinə belə təqdim edirdilər. Bu müəyyən olunmuş qayda idi ki, bunu da cəngavərlər pozmurdular. Özlərini öyməyə, şöhrətləndirməyə gələndə isə, bu da rəqibə mənəvi təsir göstərmək üçün adi hal idi. Onu da unutmamalıyıq ki, yuxarıda gətirilən epizodda Koroğlu Dəli Həsəndən xahiş edir ki, bu gün döyüş olmasın və əmin-amanlıqla söhbət etsinlər.

Mənim mühakiməmi elə başa düşməyin ki, Koroğlu öz şəxsiyyətinin ləyaqətini dərk etməyib. Yox, cənablar, dərk edir, hələ bir üstəlik artıq da. Lakin bunu da ümumxalq tərəfindən tanınan qəhrəmanın təbii xüsusiyyəti olaraq hesab edə bilərik. Amma təbii xüsusiyyətlərdən ənənəyə çevrilmiş qayda daha çox şərtləndirir: igidin özünü öyməsi, tərif etməsi də bir qayda olaraq cəsurun, yaxud "yaxşı igidin" əxlaq məcəlləsi çərçivəsinə çevrilmişdir.

*(davamı gələn sayda)*

Gürcü dilindən tərcümə edən:
**Mirzə Məmmədoğlu**

İCTİMAİ QƏZET yeniyolqazeti@gmail.com "ეხი ოოლი" საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

30 NOYABR
2023-CÜ İL
№ 022 (193)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## ŞALVA TABATADZE: "YALNIZ MÜƏLLİMLƏRİN ƏMƏKHAQLARININ ARTIRILMASI ÇOX ŞEYİ DƏYİŞMİR"



Gürcüstan Təhsil və Elm Nazirliyi müəllimlərin 2024-cü ilin 1 iyulundan qüvvəyə minəcək yeni əməkhaqqı siyasəti üzərində işləyir.

Təhsil naziri Giorgi Amilaxvarinin sözlərinə görə, yeni əməkhaqqı siyasətinə əsasən, tam dərs yükü olan müəllimlərin əməkhaqqı təxminən 500 lari və daha çox artırılacaq.

Təhsil üzrə tədqiqatçı Şalva Tabatadzenin qiymətləndirməsinə görə, nazirliyin təşəbbüsü pedaqoqların əməkhaqlarının keçirilən dərslərin sayından asılı olmadığı halda əvəzsiz ola bilər.

"Müəllimlərin 52 %-i tam dərs yükü ilə işləmir. Eyni zamanda sistemimizə görə, baş, aparıcı, mentor müəllimlərin öz kompetensiyası və fəaliyyəti baxımından da müxtəlif funksiyaları var. Əməkhaqqı isə yalnız keçirilən dərslərə bağlıdır.

Bu dəyişiklik əməkhaqqının saata görə, yəni keçirilən dərs sayına görə deyil, ümumi həftəlik yükə əsasən nəzərə alınması halında inqilabi və yenilik olardı. Ola bilsin, müəllimin həftədə 40 saat dərsi var, amma vəzifəsindən dolayı hansı funksiyaları həyata keçirirsə ona əsasən əməkhaqqı verilsin", – Ş.Tabatadze bildirib.

Müəllimlərin əməkhaqqının artırılması vacibdir, lakin təhsil mütəxəssisi hesab edir ki, təkcə əməkhaqqının artırılması təhsilin keyfiyyətinin yüksələcəyi anlamına gəlmir.

"Yalnız əməkhaqqının artırılması çox şeyi dəyişmir. Ümumilikdə götürsək, 2015-ci ildən bəri əməkhaqqının artırılması dinamik xarakter daşıyırdı (baza deyil, əlavələr, müəllimlərin statusa görə əlavə alması). 2015-ci ildən bu günə qədər əlavələr iki dəfə artıb, məsələn, baş müəllim 160 lari idisə 795 lari olub, yəni digər kateqoriyalar üzrə 5 dəfə çox olub, ancaq bu, təhsilin keyfiyyətinin yaxşılaşması demək deyil.

Bunun ardınca hələ də formal olaraq fəaliyyət göstərən, lakin real nəticəsi olmayan bütün sistem gəlməlidir. Demək istədiyim odur ki, müəllimlər kompetensiya sübut etməlidirlər, sonra həm məktəb səviyyəsində, həm də məktəbdən kənarda bilgilər davamlı inkişaf etdirilməlidir.

Bu bilik və bacarıqların təkmilləşmiş təcrübəyə çevrilib-çevrilməməsi daim məktəb səviyyəsində yoxlanılmalıdır və ən əsası bu təkmilləşdirilmiş təcrübə şagirdlərin akademik nailiyyətlərini inkişaf etdirməlidir", – təhsil üzrə ekspert qeyd edib.

*Mənbə: bm.ge*

## AVROPA İTTİFAQI GÜRCÜSTAN VƏ MOLDOVANI BİRLİYƏ HİSSƏ-HİSSƏ QƏBUL ETMƏK İSTƏYİR



Avropa İttifaqı (Aİ) Gürcüstan və Moldovanı bu dövlətlərin bəzi hissələrini nəzərə almadan birliyə qəbul etmək ideyası ilə çıxış edib. Bu barədə Aİ-nin xarici siyasət xidmətinin nümayəndəsi Piter Stano danışıb.

O bildirib ki, Aİ Dnestryanı, Abxaziya və Cənubi Osetiya ərazilərini istisna etmək istəyir.

"Avropa İttifaqı Moldova və Gürcüstanın hissə, yəni Brüsselin suverenliyini tanımadığı Dnestryanı, Cənubi Osetiya və Abxaziyasız ittifaqa qəbul oluna biləcəyini istisna etmir", – deyə Peter Stano deyib.

Onun sözlərinə görə, Avropa İttifaqı mübahisəli ərazilərinə görə Moldova və Gürcüstanın qəbulunu ləngitməməlidir.

Yeni üzvlərin qəbulu ilə bağlı müzakirəyə səbəb Avropa Komissiyasının 2023-cü il üçün genişlənmə ilə bağlı hesabatını dərc etməsi olub və burada Ukrayna və Moldovanın üzvlüyünə dair tövsiyələr verilib. Bu məsələ ilə bağlı mümkün həll yolları Aİ-nin dekabrın 14-15-də keçiriləcək sammitindən sonra ortaya çıxacaq.

Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen Gürcüstana namizəd statusunun verilməsi təklifi ilə çıxış edib. O, həmçinin Ukrayna və Moldovanın Aİ-yə daxil olması üçün yaxşı nəticələr əldə etdiyini bildirib. Avropa Komissiyasının Prezidenti Təhlükəsizlik Şurasını hər iki ölkə ilə üzvlüklə bağlı danışıqlara başlamağa çağırıb.

## GƏLƏN İLDƏN MƏKTƏBLƏRİN TEXNİKİ İŞÇİLƏRİNİN ƏMƏKHAQQI ARTIRILACAQ



Gələn ildən məktəblərdə çalışan texniki işçilərin əməkhaqları artırılacaq. Bu barədə Gürcüstanın təhsil və elm naziri Giorgi Amilaxvari deputatların sualına cavab olaraq bildirib.

O, bununla bağlı hazırlıq işlərinin görüldüyünü və büdcə hazırlandığını deyib.

"Elə məktəblər var, təəssüf ki, əməkhaqqı 160-170 laridir. Orada 40 % artım edə bilərik, amma böyük məktəblərin olduğu və əməkhaqqının yüksək olduğu yerlərdə, məncə, ən azı 20 % artım olacaq.

Mən bu insanlara söz verə bilərəm və onlara deyə bilərəm ki, 2024-cü ildə texniki işçilər üçün hər zamanki kimi 10 %-dən çox əhəmiyyətli əməkhaqqı artımı olacaq. Biz tam hazırıq və büdcə də hazırlanıb", – deyə nazir bildirib.

## ABDULLA ŞAİQİN "ÇOBAN" PYESİ SƏHNƏLƏŞDİRİLİB



Qardabanidə fəaliyyət göstərən "BEEZ" Uşaq Teatrı Abdulla Şaiqin uşaqlar üçün yazdığı "Çoban" pyesini səhnələşdiribdir. Tamaşanın premyerası Qardabanidə noyabrın 19-da baş tutub. Noyabrın 26-da isə tamaşa Tbilisidə yerləşən Mirzə Fətəli Axundov adına Azərbaycan Mədəniyyəti Muzeyində nümayiş etdirilib.

Teatrın kiçik aktyor və aktrisaları – Nuri Qurbanov, Zehra Akif , Seymur Muradov, Əzəm Əfəndiyeva və Məryəm Əliyeva öz rollarını məharətlə ifa edərək tamaşaçıların alqış və maraqlarına səbəb oldular.

Tamaşanın rejissoru "BEEZ" Uşaq Teatrının bədii rəhbəri Binəli İslamoğlu, rəssamı AzMus, geyim üzrə rəssamı isə Mahnur Ənvərdir.

Qeyd edək ki, teatrın hazırladığı "Çoban" tamaşası bu il təqdim edilən ikinci tamaşadır. Birinci tamaşa Vüqar Haqverdiyevin "Qarınqulu ayı balası" pyesi əsasında hazırlanmışdır.

## MARNEULİ BƏLƏDİYYƏSİNİN 8 KƏNDİNDƏ YENİ UŞAQ BAĞÇASI TİKİLƏCƏK



2024-cü ildə Marneuli bələdiyyəsinin 8 kəndində yeni uşaq bağçasının tikintisi planlaşdırılır. Bu barədə 2024-cü ilin büdcə lahiyəsinin ictimai müzakirəsi zamanı Marneuli Meriyasının Maliyyə-Büdcə Şöbəsinin rəhbəri Koba Çxitunidze qeyd edib.

Bildirib ki, gələn ildən Şulaveri, Qasımlı, Qaçağan, Tsereteli, Böyük Muğanlı, Kirəc Muğanlı, Kürtlər və Alget (Vinsavxoz) kəndlərində yeni uşaq bağçalarının tikintisi layihəsi həyata keçiriləcəkdir.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.